# Gülhüseyn KAZIMLI - 70

## Dəyərli şair, alim və publisist



*Qurban BAYRAMOV,*
*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, tənqidçi-ədəbiyyatşünas.*

Qırx ildən çox ədəbi- bədii və elmi yaradıcılıqla məşğul olan Gülhüseyn Kazımlı ilə 1973-cü ildən 1981-ci ilə kimi Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində "Elm və təhsil" baş redaksiyasında redaktoru işlədiyi vaxtlardan tanış olmuşam. Mən həmin redaksiyada "Ədəbiyyatşünaslıq və zaman", "Ədəbiyyat" verilişlərinin müəllif-aparıcısıyıdım...

Böyük və azman şairimiz Məmməd Arazın xeyir-duası ilə ədəbiyyatda ilk addımlarını atan Gülhüseyn Kazımlı (Kazımov) dörd ali təhsilə yiyələnib. Muzey işçisi də olub, redaktor da işləyib, dövlət qulluğunda da çalışıb. Üstəlik dövri mətbuatda xeyli elmi-publisistik yazıları da çap olunub. Filologiya elmləri namizədidir... Amma mənə görə gözəl təbə malik, incə qəlbli şairdir... Alim-şairdir... Birdə ki, onun diqqətimi cəlb edən cəhəti sevgiylə sadə, anlaşıqlı, və səmimi bir tərzdə yazmaq bacarığıdır.

İlk şeirlərini oxuduğu institutun (o zamankı Lenin adına APİ-nin) qəzetində ("Gənc müəllim") çap etdirmişdi. Hələ 70-ci illərdə qələmə aldığı "Vətən sevgisi" (1978) əl boyda, yarpaq nazikliyində ilk kitabındakı şeirlərindən onun bu üslub tərzi aşkar hiss olunurdu:

Hara getsəm dayağımdır,
Ən müqəddəs amalımdır,
Fikri, hissim, xəyalımdır,
Vətən sevgisi...

Ürəyimin diləyidir,
Vətən sevgisi...
Hər sevgidən müqəddəsdir,
Vətən sevgisi...

Özü deyir: "Ümumiyyətlə, mən təbliğatçı olmuşam, təbliğatçı qulluq etdiyi dövrün, zamanın ideologiyasını təbliğ etməlidir. Təbliğatçı bir günə yetişmir, nəyisə təbliğ etməyin özü də böyük bir istedaddır. Təbliğ edən təbliğ olunanı inandıra bilmirsə demək təbliğatçı deyil. Ona görə işlədiyim illərdə çalışmışam ki, təbliğatı elə aparım ki, insana yönəlmiş təbliğat olsun..."

Şair özü də təbliğatçıdır... Gözəllik təbliğatçısı, mənəviyyat təbliğatçısı, əxlaq təbliğqaçısı, vətənpərvərlik təbliğatçısı... İndi də milli müəyyənliyimizin pasportu olan muğam irsimizin, mədəniyyət irsimizin təbliğatçısıdır. O, bu işi Beynəlxalq Muğam Mərkəzinin "Unudulmayanlar" layihəsi çərçivəsində böyük ürəklə, xüsusi həvəslə həyata keçirir. İndiyədək Bülbülcanın, Seyid Şuşinskinin, Hacıbaba Hüseynovun, Şövkət Ələkbərovanın, Həqiqət Rzayevanın, məşhur qarmon ifaçıları Kor Əhədin, Teyyub Dəmirovun və s. sənətkarların həyat və yaradıcılığına həsr olunmuş musiqili gecələr təşkil edib, onların arasından Kor Əhəd və Bülbülcan haqqında iki kitab ərsəyə gətirib... Burada da o, adi təşkilatçı, adi aparıcı deyil, şairdir, filoloq alimdir... Yaradıcılıqda məhsuldardır... Faktlara şair-alim zehniyyəti, şair-alim fəhmi ilə yanaşır...

Məlum faktlara görə 1978-ci ildən üzü bəri iyirmiyə yaxın həm şeir, həm də elmi-kütləvi kitabları işıq üzü görüb. Şeirlərinə Şəfiqə Axundova, Oqtay Rəcəbov, Tofiq Babayev, Əfsər Cavanşirov, Nəriman Məmmədov, Azər Rzayev kimi bəstəkarlar 30-dan çox mahnı bəstələyib. "Vətən sevgisi", "Qadın əlləri", "Məhəbbət", "Əsgər yuxuları" təkin mahnılar bu qəbildəndir. Onun sözlərinə yazılmış mahnıları İlhamə Quliyeva, Təranə Vəlizadə, Baba Mahmudoğlu, Flora Kərimova, Eldar Axundov, Oqtay Ağayev, Eyvaz Həsənov, Səkinə İsmayılova və başqa tanınmış sənətçilər, müğənnilər ifa ediblər...

Gülhüseyn Kazımlının mövzuca rəngarəng olan (vətən, təbiət, insan, ana məhəbbəti, yurd sevgisi, məhəbbətin tərənnümü və s.) bu şeirlərdəki lirizm ilə yoğrulmuş poetik axtarışları ilə rastlaşırsan. İndi də həmin şeirlərdəki obrazlı ifadələri, maraqlı, orijinal təşbihləri, metaforları, düşüncə tərzindəki yeniliyi təqdir edirsən, Budur, "Ürəyim" şeiri: "Ürəyim yağışdan təzəcə çıxmış, Payız meşəsinə bənzəyir hərdən.Mənim ürəyimdə səhər gümanı, Bir də günəş dolu arzular yaşar". Onun şeirlərində kənd, təbiət, doğma insanları daha çox sevgi tərənnüm olunur.O, "Kənd müəllimi", "Köhnə dəyirmanda keçən bir gecə", "Ana görüşünə gedək", "Şuşaya o qədər yağış yağmışdı", "Dağlar yatır", "İlk payızİlk durna qatarı", "Payızın qızıl sacı", "Kavdar kəndi" qəbildən onlarla şeirlərində İnsanı və Təbiəti vəhdətdə vəsf edir... Həm də çalışdı ki, şairlərinin əksəriyyətinin müraciət etdiyi bu mövzularda təzə söz desin. Onun on illər bundan öncə Şuşaya həsr elədiyi şeir sözlə Şuşanın panoramını yaradan bir lövhədir:

Təzə açılırdı düzlərdə səhər,
Duman asılmışdı yolların üstə.
Qalaya atılmış qədim bir şəhər,
Yatırdı dağların qolları üstə.

Zirvələr alışır, qara od düşüb,
Çaylar necə yanır dərə dibində.
Bu səhər günəşdən hara od düşüb?
Ovçu da yuxlayır bərə dibində.

Bu səhər dağ yolu elə hamar ki,
Hər qaya gözümdə kəhərə döndü.
Bu yollar, cığırlar dolanıb axır,
Bir qaya ovcunda şəhərə döndü.

Qəfil günəş doğdu, gözüm qamaşdı,
Yolları yoxuşdu, enişdi Şuşa.
Şuşaya o qədər yağış yağmışdı,
Yuyulub şüşəyə dönmüşdü Şuşa.

İndi Şuşanın, dağların həsrətində qalmışıq... Vaxtilə Qarabağın bu lacivərd gözəlliyinin göz qamaşdıran, ürək sızıldadan lövhəsini Gülhüseynin "Dağlar yatır" şeirində M.H.Şəhriyar demiş "bir sinema kimi" bir daha müşahidə edirik:

Bulaqlar -
Dağların büllur nəğməsi,
Kəkliklər, əliklər yatışmır burda.
Elə bil dərindən heyrət etməyə,
Adamın heyrəti çatışmır burda.

Bürünüb dumana, itib zirvələr,
Sərkərdə qayalar yenə sal durub.
Elə bil dumanda bitib zirvələr,
Ya da zirvələri duman qaldırıb.

Deyilənə görə, maraqlı adamdır... Həyatsevərdir, səyahət etməyi xoşlayır. İndiyədək otuza yaxın Avropa, Amerika, Asiya ölkələrində səfərdə olub və bu səfərlərdə müşahidə etdiklərini şeirə, sözə çeviribdir... Klassiklərin əsərlərini mütaliə etməkdən zövq alır. Muğamın vurğunudur. Dinlədikcə vəcdə gəlir, gözləri yaşarır. "Bir Muğam, bir də, erməni işğalında qalmış Qarabağ mənim yaralı yerimdir"- söyləyir.

Onun yaradıcılıq yolu, fəaliyyətinin müxtəlif mərhələləri parlaq uğurlarla zəngindir. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

"Vətən sevgisi" (1978), "Yollarda ömür" (1981), "Mənə inan" (1983), "İnsanın dərki" (1995), "Ümid yeri" (2003), "Heydər Əliyevin yadigarları" (2004) "Seçilmiş əsərləri" (2010) və s. şeirlər və elmi-kütləvi kitabların müəllifidir. İndi Azərbaycan Beynəlxalq Muğam Mərkəzinin (BMM) layihələr koordinatorudur... Musiqi və mədəniyyətin müxtəlif problemləri sahəsində tədqiqatçı-alim kimi tanınan Gülhüseyn Kazımlı Gürcüstanda fəxri diploma layiq görülüb.

Azərbaycan Beynəlxalq Muğam Mərkəzinin və Gürcüstan Dövlət Folklor Mərkəzinin birgə təşkil etdikləri Gürcüstanda - Tibilisidə keçirilən "Azərbaycan (muğamlar, xalq mahnıları və təsniflər) və Gürcü (folklor) musiqi mədəniyyətləri: tarixi köklər, müasir əlaqələr və perspektivlər" mövzusunda tədbir-konfransdakı təşkilatçılıq və elmi fəaliyyətinə görə "Gürcüstan Teatr Cəmiyyəti" Yaradıcılıq Birliyi Azərbaycan-gürcü mədəni əlaqələrinin inkişafında səmərəli fəaliyyəti və anadan olmasının 70 illiyi münasibətilə "Gürcü teatrının dostu" Gülhüseyn Kazımlını fəxri diplomla təltif edilmişdir.

Bu tədbirdə iştirak edən Azərbaycanın Tbilisidəki səfiri Dursun Həsənov, Mərkəzin direktoru Georgi Donadze, Beynəlxalq Muğam Mərkəzinin (BMM) direktoru Murad Hüseynov, Gürcüstan Xalq Mahnıları və Musiqi Alətləri Dövlət Muzeyinin direktoru Revaz Kodrikadze, Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi, Tbilisi Dövlət Konservatoriyasının əməkdaşı Nino Gambaşidze, Gürcüstan Xalq Mahnı və Musiqi Alətləri Dövlət Muzeyinin əməkdaşı Ketevan Bayaşvili və başqaları alim-tədqiqatçı, şair-publisist Gülhüseyn Kazımlının bu istiqamətdə göstərdiyi fəaliyyəti və xidmətləri yüksək qiymətləndirmişlər...

Yazıçı, publisist, filologiya üzrə fəlsəfə doktoru Gülhüseyn Kazımlının ictimai fikir tariximizin görkəmli nümayəndələrindən biri olan Əsgər ağa Adıgözəlov Goraniyə həsr olunmuş "Qaranlıqdan işığa. Əsgər ağa Gorani" (Bakı, "Şuşa" nəşriyyatı, 2016, - 224 səh.) adlı kitabı onun yaradıcılığında və eləcə də müasir mədəniyyətimizdə, ədəbiyyatşünaslığımızda əlahiddə yer tutur. Buradaca qeyd edək ki, görkəmli filoloq-pedaqoq, məhrum Kövsər Tarverdiyeva hələ 1977-ci ildə "Əsgər Ağa Adıgözəlov Gorani" monoqrafiyası yazmış və bu mövzuda elmlər namizədliyi müdafiə etmişdir. Lakin Gülhüseynin "Qaranlıqdan işığa" monoqrafik tədqiqatı tamamilə yeni metodoloji əsasda, fərqli rakursda, bədii-publisistik üslubda qələmə alınmışdır. Kitabda Azərbaycan ictimai fikir tarixinin görkəmli nümayəndələrindən biri, xeyriyyəçi, pedaqoq, tərcüməçi, jurnalist, haqlı olaraq Azərbaycan teatrının yaradıcılarından sayılan Əsgər ağa Adıgözəlov Goraninin ictimai, publisistik, xeyriyyəçilik fəaliyyətinindən söhbət açılır, indiyəcən bu görkəmli şəxsiyyətin həyat və fəaliyyətində açılmamış səhifələr aşkarlanır, yetərincə işıqlandırılmamış sahələrinə nəzər yetirilir... Kitabın redaktoru və ön sözün müəllifi Milli Məclisin deputatı, akademik Rafael Hüseynovdur. Bu kitab, həmçinin, Əsgər ağa Goraninin 2017-cı ildəkeçirilmiş 160 illik yubiley tədbirlərinə layiqli bir töhfə idi...

Alim-tədqiqatçı bu əsərində məşhur "Qarabağnamə"lərdən birinin müəllifi Mirzə Adıgözəl bəyin nəvəsi Əsgər ağa Goraninin fəaliyyət və şəxsiyyətinin müxtəlif istiqamətlərinə işıq salmış, onu yazıçı, jurnalist, tərcüməçi, aktyor, maarifçi-müəllim, xeyriyyəçi kimi müxtəlif rakuslardan publisistik - oxunaqlı bir dillə oxucuya təqdim etmişdir.- Kitabda ilk dəfə Əsgər ağa Goraninin "Əkinçi" qəzetində dərc olunan məqalələri, publistkasından nümunələr, məktubları, "Yel gəmisi" ("Vozduşnıy Korablğ" - M.Y.Lermontovdan tərcümə), "Qocalıqda yorğalıq" pyesi də, əksini tapmışdır ki, bu faktların incələmə və yozumu ədəbi əlaqələrimizin maraqlı məqamlarını ortalığa çıxara bilər...

Əsgər ağa Görani 9 mart 1910-cu ildə vəfat edib, məqbərəsi müəyyənləşdirilib, təmiri üçün təşəbbüs qaldırılıb və yerinə yetirilibdir. Həmçinin məlumat verilir ki, o, maarifçi ziyalı, milli kübarlığa mənsub Ziyadoğlu və Qacarlar nəslindən Əbülfət ağanın qızı, İsmayıl xan və Adil xan Ziyadxanovların bacısı Bəyim xanımla evlənib, dörd övlad böyüdüb (Danyal bəy, Mikayıl bəy, Lülpər xanım və Əli bəy). Əsgər ağa Goraninin nəticəsi Beynəlxalq Muğam Mərkəzinin direktoru, Xalq artisti Murad Hüseynovdur... Ümumiyyətlə, müəllif bu kitabında Əsgər ağa Goraninin və onun xanımının səcərəsi haqqında, lap ulu babadan tumuş kötücələrinə qədər müfəssəl məlumatlar verir, nadir sənədlər, arxiv materialları, fotoşəkillər təqdim eləyir...

Bu qəbildən kitablar elə-belə, birnəfəsə,erudisiya hesabına yazılmır... Bakı, Gəncə, Moskva, Sankt-Peterburq, "Saltıkov-Şedrin" adına kitabxana, Tiflis və s. arxivlərində də , eləcə də şəxsi arxivlərdə ciddi axtarışlar, gərgin əmək sərf etməklə ərsəyə gəlir. Hələ, burada uzun illər boyu mətbuatda, tədqiqatlarda, monoqrafik ədəbiyyatdakı materialları, məlumatları demirəm...

Gülhüseyn Kazımın yaradıçılığında müstəsna yer tutan bu əsər barəsində son olaraq qeyd edək ki, "Qaranlıqdan işığa - Əsgər ağa Gorani" kitabı XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşamış tanınmış ziyalı, maarifçi ədib, milli teatrın, mətbuatın və xeyriyyə hərəkatının yaradılmasında öz müəllimi Həsən bəy Zərdabiyə yaxından kömək etmiş Əsgər ağa Adıgözəlov Goraninin ömür yolunun, ictimai-mədəni və ədəbi fəaliyyətinin daha dolğun öyrənilməsini hədəfə alan qiymətli qaynaq kimi olduqca qiymətlidir. Onu da qeyd edək ki, Qarabağ və Gəncə kübarları nəslindən olması səbəbindən sovet dövründə bu millətsevər ədibin irsi və ictimai xadimin ömür yolu və fəaliyyəti kifayət qədər öyrənilməmişdi. Bu baxımdan, araşdırmaçı Gülhüseyn Kazımlının ciddi arxiv axtarışları nəticəsində hasilə gətirdiyi və digər tədqiqatları və bioqrafik materialları da əlavə etdiyi bu toplu milli oyanış, maarifçi ədəbiyyat və anadilli mətbuat tariximizin dərindən öyrənilməsinə dəyərli töhfədir.

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Gülhüseyn Kazımlının Moskvada, İctimai Elmlər Akademiyasının mədəniyyət tarixi və nəzəriyyəsi kafedrasında təhsil almış, elə orada namizədlik dissertasiyası müdafiə etmiş, filologiya elmlər namizədi olmuşdur. Onun "İnsanın dərki" (“Postijeniye çeloveka”-1992) monoqrafiyası da dissertasiyası əsasında nəşrə hazırlanıbdır. Bu əsər ədəbiyyatda İnsan konsepsiyasının elmi-nəzəri həllini açıqlayır.

Bədii əsərin psixo-analizini verən tədqiqat əsəridir... Sənət və bu incə elm arasında əlaqələri tapmaq və dünya ədəbiyyatı kontekstində Azərbaycan bədii nəsrində psixologizm üslubunun funksiyasını üzə çıxarmaq vu tədqiqatın əsas məqsəd və vəzifəsi, problematikası olubdur. Sənətin psixoloji yozumunun sirrlərinə vaqif olmaq istəyi Gülhüseynin dissertasiyasının məğzini təşkil edir. Ədəbi janrlarda, xüsusən nəsrdə insan şürunun müxtəlif qatlarında baş verən proseslərə nüfuz etmək cəhdi yeni məzmunlu bədii nəsri yaratdı ki, ədəbi camedə gedən bu populyasiya Gülhüseynin “İnsanın dərki” monoqrafiyasında əks etdirməyə, ədəbiyyatın insanı dərk etmək yollarının xüsusiyyətlərini aşkarlamağa cəhd edibdir, problemi psixo-analitik funksiyasında çözə bilibdir...

Monoqrafiyada “Qəhrəmanın mənəvi ziddiyyətlərinin açılmasında və əxlaqi baxımdan kamilləşməsində daxili konfliktlərin xüsusiyyətləri”, “Müasir əxlaqi toquşmaların (kolliziyaların) dərinləşməsi vasitəsi kimi əsərlərin struktrunda zaman əlaqəsi” fəsillərinin adlarından da göründüyü kimi, tədqiqatçı ədəbi-nəzəri fikrimizdə olduqca vacib, sənət yüklü problematika ilə məşğul olmuşdur...

Tədqiqatçı Yusif Səmədoğlunun "Qətl günü", Mövlud Süleymanlının "Dəyirman", Q.Pançikidzenin "Spiral", A.Bitovun"Puşkin evi" əsərlərini səksəninci illər Azərbaycan, rus və gürcü nəsrinin ən maraqlı nümunələri kimi götürərək bu əsərlərin qəhrəmanlarını birləşdirən oxşar cəhətləri ön plana çəkir, milli xüsusiyyətlərini unutmayaraq insanın bəşəri cəhətləri üzərində dayanır... Və sübut edir ki, öz zamanını qabaqlayan əsərlərin təməlində yalnız sənət üçün məlum olan, bizə və hətta sənətçiyə naməlum qalan detallar var ki, bu detalların mahiyyəti zaman keçdikcə aydınedilmişdir və müəllifin bu cəhətdən də bacarıq və biliyi özünü göstərir... Bu monoqrafiya sonrlar Azərbaycan dilinə tərcümə edilərək Gülhüseyn Kazımlının “Seçilmiş əsərləri”nə (2010) daxil edilsə də, orjinalı bir o qədər də, dürüst əhatə etmir. Bu monoqrafik tədqiqat həm Gülhüseyn Kazımlının elmi yaradıcılığında, həm də 90-cı illər Azərbaycan ədəbiyyatşünaslığında əhəmiyyətli elmi-ədəbi faktlardandır...

Gülhüseynin elmi, publistik yaradıcılığı nə qədər cazibədar olsa da, onun qəlbinin dərinlyində bir poeziya həsrəti var ki, eləTəbriz həsrətinə, indi də, Şuşa həsrətinə bərabərdir... Poeziya sevgi ilə, məhəbbətlə yoğrulur... Bir qəzavü-qədərdən sevgisindən, məhəbbətindən ayrı düşən Gülhüseynin ilham pərisinin gülləri də xəzana düşüb, borana düşüb... O gün, bu gün



Onun qələmə aldığı bu tədqiqat əsərlərini nəzərdən keçirərək gördüm ki, onda tarixi gerçəklik və bu gerçəklikdə tarixi şəxsiyyəti vəhdətdə götürüb təhlil edərkən faktın reallığından elmi qənaətlər çıxarmağı bacarması şəristəsi yüksəkdir. Buna görədir ki, Gülhüseyn Kazım haqqında söz açdığı yazıçını, yaxud mədəniyyət xadimini oxucuya bütün əsas cəhətləri, uğurları və kəsirləri ilə bir yerdə obyektiv elmi mövqedən təqdim edə bilir. Geniş ictimaiyyət, oxucular onun təqdimatında tarixi şəxsiyyəti - yazıçını, mədəniyyət xadimini təkcə tarixən yox, həm də müasir mədəni prosesin ümumi axarında, bədii yaradıcılıq axtarışlarının ümumi mənzərəsində görə bilir. Gülhüseyn təqiqat apardığı problemə, müraciət etdiyi obyektə, ədəbiyyat faktına fərdi, lokal şəkildə yox, inkişafda olan həyat və sənətlə birlikdə, vəhdətdə elmi qiymət verir. Bu isə tədqiqatçıdan, araşdırıcıdan geniş elmi dünyagörüş və yüksək professionallıq tələb edir. Bu mənada onun əsərləri tarixilik və müasirlik fonunda ədəbiyyat və zaman haqqında monoloq kimi səslənir...

Tarixin arxivlərində qalmış mədəniyyət layını aşkarlayarkan Gülhüseyn Kazımlı ondan milli ədəbi sərvət kimi söz açır və bu səviyədə qiymətləndirir. Onun araşdırma obyekti olan mədəniyyətimizin, ədəbiyyatımızın tarixi şəxsiyyətləri özünəməxsus fərdi siması, fərqli mahiyyəti əsasında elmi-nəzəri cəhətdən dəyərləndirilir. Heç tərəddüd etmədən Gülhüseyn Kazımlı müasir mərhələdə Azərbaycan mədəniyyətinin özünəməxsusluğunun, zənginliyinin mahir bələdçisi adlandırmaq olar. Fikrimcə, o, XXI əsrdə bu sahədə vaxtilə görkəmli sənətşünas Firudin Şuşinskinin ənənəsini ustalıq və profesionallıqla, elmi əsaslarla davam etdirir və rəsmi oldu-olmadı özünü Əməkdar Mədəniyyət İşçisi kimi təqdim etməyi bacarır...

Gülhüseyn Kazımlı (Gülhüseyn Kazım imzası ilə də tanınır) “Ümid” adlı şeirində yazır:

“Ümid mənim yolum üstə,<br>
İşıq olub, mayak olub.<br>
O, ən ağır günlərimdə,<br>
O, ən xoşbəxt günlərimdə<br>
Hayan olub, dayaq olub...”

Bu misralar onun həyat kredosunun, dünyaya, sabaha baxışını aydın ifadə edir. Bu şeirdə, belə bir misra da, var: “Ümidimə çatmaq üçün, Qocaldıram ümidimi...”

laşır və bu cəhət sənətin müasirliyini, zaman içində zamana nüfuzunu, zamansızlığını yaradır...

Monoqrafiyanın təqdir edilısi cəhətlərindən biri də budur ki, müəllif əvvəllər psixologizm nöqteyi-nəzərindən baxılmamış, yaxud ədəbiyyatın tədqiqat obyektinə cəlb edilməmiş əsərlər təhlil və tədqiqata cəlb edir, müqayisələr aparır, orjinal nəticələr çıxarır, Avropa, MDB ölkələrinin və Azərbaycan ədəbiyyatına məxsus ədəbi-bədii nümunələri psixologizm və pozitivizm problemi müstəvisində tədqiq edərək, haqlı bir nəticə ədə edir ki, Azərbaycan bədii nəsri bu cəhətdən heç vaxt geridə qalmamış, təsir altına düşməmiş, dövrün ədəbi prosesində müstəqil, özünəməxsus şəkildə inkişaf etmiş, hətta müəyyən məqamlarda SSRİ adlanan məkanda yaranan bədii nəsrə nüfuz edə bilmişdir.. Əslində bunun özü, o dövr üçün də, bu günümüz üçün də unikal elmi nəticədir... Kitabda rus, belorus, Pribaltika, Orta Asiya, Ukrayna, Zaqafqaziya - Gürcü, Azərbaycan ədəbiyyatını təmsil edən ən tanınmış yazıçıların - A.Platonovun, E.Zamyatinin, A.Soljinitsinin, Ç.Aytmatovun, İ.Buninin, V.Nabokovun, U.Banunun, Y.Səmədoğlunun, M.Süleymanlının, A.Bitovun, V.Bıkovun, Q.Pançikidzenin, D.Qeorqadzenin, Z.Toradzenin, Ç.Hüseynovun, Elçinin, V.Şukşinin, Maqsud və Rüstəm İbrahimbəyovların, Anarın, V.Rasputinin, V.Astafyevin, S.Zalıqinin və başqalarının əsərləri əsasında psixoloji nəsrin ən xarakterik xüsusiyyətləri aşkar bu tipli bədii ədəbiyyatın inkişaf tendensiyaları elmi-nəzəri əsasda proqnozlaşdırılır.

Bu qədər məşhur və müxtəlif millətlərə məxsus yazıçıların əsərlərini bir araya gətirib tədqiqata cəlb etmək müəllifdən erudik bilik və cəsarət tələb edir. Bununla yanaşı alim-tədqiqatçı Gülhüseyn Kazımlının “İnsanın dərki” monoqrafiyası elmi aparaturası ilə də diqqəti çəkir. O, demək olar ki, 90-cı illərin başlanğıcına qədər “nəsrin psixologizm” probleminə aid çox adamların əlinin çatmadığı, oxuduğu akademiyanın kitabxanasında məxfi qrifli elmi-nəzəri ədəbiyyata, ədəbi-tənqidi materiallara, bəlgələrə müraciət etmiş, münasibət bildirmiş, yeri gələndə inandırıcı polemikalar aparmışdır. Əsər rusca yazılmış, Moskvada müdafiə şeir-poeziya baxçasına daxil ola bilmir, elmi-kütləvi, publisistik yazıları ilə ürəyini ovudur...

Qeyd etdiyim kimi, dörd ali təhsili var. V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunu (İndi Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti), Bakı Ali Partiya Məktəbini (indi Respublika Prezidenti yanında İdarəetmə Akademiyası), Sov.İKP MK-nın İctimai Elmlər Akademiyasının “Mədəniyyət tarixi və mədəniyyət nəzəriyyəsi kafedrası”nın aspiranturasını (Moskva) - burada filologiya üzrə elmi iş götürüb müdafiə edərək filologiya elmlər namizədi adını alıbdır və Bakı Biznes Universitetini bitiribdir. Gülhüseyn Kazımlı Azəbaycan dövlətçiliyi ənənələrinə son dərəcə sadiq, vətənsevər, dövlət müstəqilliyi kimi strateji işə könüldən bağlı, siyasi, iqtisadi, hüquqi, coğrafi, sosial və mədəni tarixə yaxından bələd, həmişə əli qələmli, mikrofonlu ziyalılarımızdandır...

Gülhüseynin mədəniyyət tariximizə xidmətləri mətbuat səhifələrindən, ekran-efirdən, apardığı ədəbi-musiqili axşamlardan məlumdur. Lakin onun “Bülbülcan” (2016 - Vasif Quliyevlə birgə) və Kor Əhədə həsr etdiyi “Qarmonun əfsanəsi” (2018 - Sultan-zadə fon Brüseldorff Aleksandriya birgə) publisistik-monoqrafik kitabları mədəniyyət tariximiz üçün olduqca maraqlı ədəbi faktlardandır. Olduqca zərif şəkildə nəşr olunmuş bu kitabların birində muğam tariximizin ən istedadlı nümayəndələrindən olan Əbdülbaqi Kərbalayi Əli oğlu Zülalov - Bülbülcandan (1841-1927) söhbət açılır, indiyə kimi onun həyat və fəaliyyətinin işıqlandırılmamış sahələrindən bəhs edilir. İkinci kitbda isə əfsanəvi qarmonçalan Kor Əhədin (Əhəd Fərzəli oğlu Əliyev, 1893-1942) həyat və yaradıcılığından bəhs olunur. Onların sənət yollarındakı fəaliyyətləri və bu sənətə gətirdikləri yeniliklər haqqında maraqlı məlumatlar verilir. Hər iki əsərdə mədəniyyət xadimləri haqqında musiqi xadimlərinin, sənətşünasların, müasirlərinin fikirləri, nadir arxiv sənədləri, tarixi fotolar, ailə şəcərələri və s. verilmiş, bütün bunlar musiqi sənətimizin əvəzsiz şəxsiyyətlərini və onların mühitlərini daha yaxından tanımağa imkan yaratmşdır...

Bu gün onun 70 yaşı tamam olur, amma inanıram ki, onun “qocaltdığı ümid” həmişə ona həyan və dayaq olacaqdır!

Bizi qaranlıqlardan işığa səsləyən ölməyən ümidlər arzüsuyla, bir daha 70 yaşlı əməksevər, istedadlı qələm dostumuzu, həmkarımzı təbrik edirəm!!

Məqaləmi, istedadını və qələmini ədəbiyyatın əksər parametlərində parlaq nümayiş etdirən Əli Rza Xələflinin yubilyara həsr etdiyi “Karvan gedir” şeirindəki arzu və istəklə bitirirəm:

Karvan gedir, səfər üstə öz yolundan qalmaz axı,<br>
Dərd yükünü Tanrı verib, kimsə ondan almaz axı.

Qəm karvanı - öz dərdinin ovsarını çəkir sarvan,<br>
Gözlərində qəm aparan göz yaşını silməz axı.

Sinəsində dağlar yatır, yurda sarı baxa-baxa,<br>
Ürəyində dərd gəzdirən bir ürəkdən gülməz axı.

İlham alsa şair qəlbi sevda dolu bir könüldən,<br>
Yollar boyu qəm çilənmiş söz gülləri solmaz axı.

Arif olan özü bilər, hardan gəlir söz karvanı.<br>
Bilməyənə necə deyim; mənaları bilməz axı.

Ömür payı, həyat eşqi bir badədir içə bilsən?<br>
Yaşarısan zaman - zaman, əbədilər ölməz axı.

Ey əzizim, piayaləni yaxşı saxla, düşər sınar,<br>
Atalardan bir məsəl var: hər tökülən dolmaz axı.

Ayrılırıq cavanlıqdan, qəm eləmə qocalıq var,<br>
Bilirsən ki, əldən gedən bir də geri gəlməz axı.

Bu dünyadan çox Hüseyn gəlib-gedib, yaxşı - yaman,<br>
Ey Xələfli, hər gördüyün Gül Hüseyn olmaz axı.

Bizi qaranlıqlardan işığa səsləyən ölməyən ümidlər arzüsuyla, bir daha 70 yaşlı əməksevər, istedadlı qələm dostumuzu, həmkarımzı - Gül Hüseyni təbrik edirəm!

*29. 01. 2020.*